# ƏHMƏD CAVADIN POEZİYASINDA MİLLİ İDEAL

**Razim Məmmədov**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*http://ORCID.org./0000-0002-5694-9501*
*r_mamedli@mail.* ru

**Xülasə**

XX əsr Azərbaycan ədəbiyyatında orijinal dəst-xətti olan Əhməd Cavad milli poetik fikrimizin yeni məna kəsb etməsində böyük xidmətləri ilə seçilən şairlərdəndir. Onun poeziyasında Vətən və millət idealı, xalqımızın milli istiqlala qovuşmaq arzusu, bu amal uğrunda aparılan mübarizə sənətkarlıqla tərənnüm olunur. İstiqlal şairi Əhməd Cavadın yaradıcılığı mövzu və janr rəngarəgliyi baxımından zənginliyi ilə diqqəti cəlb edir.

Şairin qələmə aldığı nikbin, sevinc əhval-ruhiyyəli şeirləri, romantik poetik nümunələri bu gün də aktuallığı ilə diqqəti cəlb edir.

**Açar sözlər:** Əhməd Cavad, Vətən, millət, azadlıq motivləri, milli mücadilə, ümumtürk qaynaqlar.

# NATIONAL IDEAL IN AHMET JAVAD'S POETRY

**Razim Mammadov**
*Azerbajan State Pedagogical University*

**Abstract**

In the XX century Ahmet Javad, who has an orijinal set line in Azerbaijani literature, is one of our poets who stand out for his great services in giving a new meaning to our national poetic thought. In his poetry, the ideal of the homeland and nation, the desire of our people to achieve national independence, and the struggle for this deed are glorified with artistry. The optimistic, joyful poems, romantic poetic examples the poet wrote attract attention with then relevance today.

**Key words:** Ahmet Javad, homeland, the nation, motives of freedom, national struggle, Turkish sources.

# НАЦИОНАЛЬНЫЙ ИДЕАЛ В ПОЭЗИИ АХМЕТА ДЖАВАДА

**Разим Мамедов**

*Азербайджанский государственный педагогический университет*

**Резюме**

Ахмед Джавад оригинальный национальный поэт азербайджанской литературы XX века. Отличается большими заслугами в придании нового смысла нашей поэтической мысли. В его поэзии воспеты идеал Родины и нации, национальная независимость нашего народа, стремление воссоединиться, борьба за это дело. Творчество поэта-независимца Ахмета Джавада привлекает внимание своим тематическим и жанровым богатством.

Оптимистические, радостные стихи, написанные поэтом, романтически-поэтические примеры привлекают внимание своей актуальностью и сегодня.

**Giriş / Introduction**

Azərbaycan ədəbiyyatı tarixində şairlik qüdrəti ilə özünəməxsus şərəfli yer tutan istedadlı ədiblərimizdən biri də Əhməd Cavaddır. Məlumdur ki, faciəli ömür sürən şairin zəngin irsinə uzun müddət lazımi diqqət yetirilməmiş, ona haqq etdiyi yüksək qiymət verilməmişdir. Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra böyük şairin həyatı və yaradıcılığının öyrənilməsinə maraq artmış və sənətkarın çoxsahəli poeziyasının ideya məzmunu, sənətkarlıq keyfiyyətləri, eləcə də digər məsələlərin fundamental şəkildə tədqiqinə başlanmışdır. Şairin bədii irsinin tədqiqatçılarından olan tanınmış ədəbiyyatşünas A.Əliyevanın, Ə.Cavad irsinin ardıcıl tədqiqatçısı Əli Saləddinin, şairin türk tədqiqatçısı İrfan Murad Yıldırımın, akademik Bəkir Nəbiyevin, professor Təyyar Salamoğlunun, professor Şamil Vəliyevin və başqa ədəbiyyatşünas alimlərin kitab və monoqrafiyalarında faktlara əsaslanan çoxsaylı fikir və mülahizələrlə rastlaşılır, şair həm də XX əsr Azərbaycan romantizminin görkəmli nümayəndəsi kimi dəyərləndirilir. Tanınmış türk alimi İ.M.Yıldırım Ə.Cavad romantizminin bəzi cəhətləri haqqında mülahizələrində haqlı olaraq qeyd edir ki, "Ə.Cavadı oxumaq Azərbaycan türkünün bu illərdəki ümidlərini, milli həyəcanlarını tanımaq, öyrənmək deməkdir. Onun şeirlərində ölkəsilə birlikdə öz kədərini addım-addım təqib etmək mümkündür. Yenə onun şeirlərində özünü var edən ideallarının

taleyin acı bir oyunu ilə rədd etmək zorunda qalışını və bu sırada duyduğu ruhi sancıları, fəryadları da görmək mümkündür” [Yıldırım, 1992:12].

**Əhməd Cavadın həyat idealı.**

Müasir Azərbaycan ədəbiyyatşünaslığında şairin “Həyat mübarizədir” qənaəti üzərində geniş dayanılıb, bu barədə müxtəlif dəyərli fikirlər söylənilib. Professor Təyyar Salamoğlu yazır ki, “onun mübarizə idealı mücərrəd deyil, konkret və aydın məzmuna malikdir. Ə.Cavad millətin öz xoşbəxt gələcəyi uğrunda mübarizəsindən, milli, mənəvi tərəqqinin zəruriliyindən, yüksəlişindən danışır, əsərlərində konkret işlər görüb milləti parlaq gələcəyə qarışdırmaq ideyasını birləşdirir” [Salamoğlu, 2021:540].

Sev bu yalçın qayaları,
Bunlar şahin yuvası.
Sev bu izsiz ormanları,
Bunlar ərlər obası [Cavad, 1992:24].

Şairin qənaətinə görə, yalçın qayaları, izsiz ormanları sevməmək olmaz. Çünki onlar şahinlər yuvası, ərlər obasıdır. Bu amal uğrunda savaşmaq ideyası Ə.Cavad poeziyasında “həyat mübarizədir” idealının romantik bədii inikasının bariz nümunəsidir.

Ə.Cavadın yaradıcılığında Vətən idealı ilə milli idealın qarşılıqlı şəkildə təzahür etdiyini şairin qələmə aldığı poetik nümunələrdə aydın sezmək mümkündür. Bu mənada şairin “Yaralı quş” şeirini onun idealının uğurlu romantik ifadəsi hesab etmək olar. Bu şeirdə vətənin və millətin müstəmləkə şəraitindəki ağır həyat tərzi şairin yaradıcılığına qəm, kədər, taledən şikayət motivləri gətirir.

Yaralıdır könlüm quşu, yaralı
Yaralandı yazıq şair olalı –
Kədərli bir qəlbin yanıq fəğanı,
Yandırır ürəyi daşdan olanı!
Ovçu bu çırpınır, öldürmə bunu
Yaralıdır yazıq aşıq olalı [Cavad, 1992:29].

Ə.Cavadın “Dərdim”, “Nədən yarandım”, “Dan ulduzu”, “Göy göl”, “Səsli qız” və s. Bu kimi çoxsaylı poetik nümunələrində Vətən və millət idealı böyük sənətkarlıqla vəhdət şəklində tərənnüm olunur, şair mənsub olduğu xalqa

milli azadlıq mübarizəsi əhval-ruhiyyəsini saxlamağı, istiqlal uğrunda savaşa hazır olmağı tövsiyə edir.

Ə.Cavad yaradıcılığında dərin kədər, narazılıq, şikayət motivləri aparıcı yer tutur. Bunu şairin özü də başa düşür, bu amalın düzgün başa düşülməyəcəyindən ehtiyat edir, yeri düşdükcə şeirlərində bu kədərin ictimai mahiyyət daşıdığını oxuculara aşılamağa çalışır. Şairin poeziyası üçün xarakterik olan bu amalla bağlı T.Salamoğlu yazır: "Şair sanki yaradıcılığındakı kədər motivinin düzgün anlaşılmayacağından ehtiyat edir, buna görə də "Qərib könül, yenə dərdim yüksəldi" misrası ilə başlayan "Dərdim" şeirində bu kədərin ictimai mənasını açmağa çalışır:

Haqq görmədim, bən onuncun saraldım,
Boş yerə degildir qəmim və ahım...
Mal, can dərdi degil, vicdan əsirdi,
Xəstə degil, yazıq insan əsirdi" [Cavad, 1992:42].

T.Salamoğlu romantik poeziyada kədərin aparıcı motivlərdən olması faktını qəbul edir. Lakin romantik şeirdə qəmlə kədəri doğuran məqamların, halların araşdırılmasının da zəruri olduğunu vurğulayır. O yazır ki, "romantizmdə qəm motivi "fərdi şəxsin əhvalının xüsusi hallarında" təzahür etməkdən əlavə, həm də ictimai gerçəkliyin acı həqiqətlərinin şair düşüncəsində poetikləşdirilməsi nəticəsində də meydana çıxır" [Salamoğlu, 2021:542].

Tədqiqatçı Ə.Cavadın "Dərdim" sərlövhəli şeirini təhlil edərkən şairin poeziyasında "qəm və ah"ın şəxsi taleyi və ehtiyacları ilə qətiyyən əlaqəli olmadığını göstərir. O yazır: "Şair "qəm və ah" içində ona görə "saralır" ki, yaşadığı cəmiyyətdə "haqq görmür", burada "vicdan əsirdi". Ə.Cavadın təsvirinə görə, onun mühitində insan əsirdir və əsir olduğu üçün də yazıqdır. Deməli, bu poeziyada qəm və kədər motivinin kökündə insan və zaman, insan və cəmiyyət, köləlik və hürriyyət və ən nəhayət, bəşərin taleyi kimi qlobal problemlər dayanır.

Demək lazımdır ki, bu problemlər görkəmli Azərbaycan romantiklərinin hər biri üçün həmişə aktual olmuşdur və Ə.Cavad da bu ənənəni özünəməxsus sənətkarlıqla davam etdirmişdir".

Ə.Cavadın romantik şeirlərində sənətin predmetinin gözəllik olduğu göstərilir. Şairin şeirlərini diqqətlə təhlil edən tədqiqatçı yazır: "Şairin fikrincə, əsl kamil, həqiqi gözəllik cismani və mənəvi gözəlliyin vəhdətində meydana çıxır. Bu fikrin "Nədən yarandın" şeirindəki romantik ifadəsi belədir:

Sazlar, bayatılar mühitdən anlar,
Bilirmisən, bunlar səninçün ağlar.

*** *** ***

Keçdiyin yerlərdə bir daş olaydım,
Öpeydim yorulmaz ayaqlarından.
Sevgin əmr edəydi, bir quş olaydım,
Vətənin, hilalsız bucaqlarından.

Yıldızsız göyündən şikayətim var.
O qədər ki, dərdim!... Bir quş nə yapar [Cavad, 1992:74].

T.Salamoğlu şairin cümhuriyyət dövründə yazdığı şeirlərə xüsusi diqqət yetirir, bu illərdə şairin poeziyasında sevinc pafosunun, nikbin ruhun üstünlük təşkil etdiyini göstərir. Həqiqətən də şairin "müstəqil milli dövlətimizin yaranmasından duyduğu məmnunluq hissini, xoşbəxt bir vətəndaş olaraq sevinc hissini şeirlərində aydın sezmək olur". Tədqiqatçı fikirlərini belə tamamlayır: "Azərbaycanda Milli Demokratik Respublikanın fəaliyyət göstərdiyi dövrdə Ə.Cavadın romantik poeziyası üçün tərənnüm, sevinc pafosu, nikbin ruh əsas olmuşdur" [Salamoğlu, 2021:544].

Azərbaycan Demokratik Respublikasının tezliklə devrilməsi, milli müstəqilliyimizin süquta yetirilməsini heç cür əxz edə bilməyən şairin keçirdiyi ağrıları, kədər, üzüntü və narahatçılığı alim sənətkarın milli faciə kimi qavradığını dəyərləndirərək yazır ki, şair Milli Demokratik Respublikanın devrilməsini, gözəl Vətəninin müstəmləkə boyunduruğuna keçirilməsini milli faciə kimi qavrayır, bu faciə ilə heç cür barışa bilmir.

Ə.Cavadın sovet hakimiyyətinin ilk illərində yazdığı şeirlərdə də milli kədər motivləri geniş yer tutur. O, şeirlərinin əksəriyyətində milli dövlətin devrilməsini, həmin illərdə keçirdiyi gözəl günlərdən, şairin həyat şəraitindən, milli müstəqilliyin xalq üçün böyük nemət olmasından kədərlə söhbət açır. Ümidsizliyə qapılmayan şairin bu kədərinin ictimai xarakter daşıdığını vurğulayan T.Salamoğlu yazır: "Humanizm, ədalət, sülhsevərlik, bəşəri və milli dəyərlərin eyni dərəcədə üstün tutulması bu şeirlərdə bütün çılpaqlığı, kəskinliyi, rəngarəngliyi ilə təzahür edir:

Mən, doğrusu, daim gülmək istərəm,

Nə öldürmək, nə də ölmək istərəm! Artıq yetər
yer üzündə axan qan, Yetər artıq bu göz yaşı, bu
hicran!

Xalqının başına gələnlər fəlakətin ağrılığı ilə bağlı Ə.Cavab şeirində kədər, qəm motivi güclü olsa da, şairin ülvi arzularını, nəcib istəklərini üstələyə bilməmişdir. Müdhiş bir rejim içində yaşayarkən onun gətirdiyi dərdi, kədəri poeziyasının ruhuna hopduran Ə.Cavad şeirində ölümsüz, səadət, vüsal dolu dünya haqqında xoş arzularının ifadəsi olduqca heyrətləndiricidir:

Mən istərəm yaşıllıqlar solmasın! Sevdaların
sonu hicran olmasın! Mən görməyim səadətin
sonunu! Ölüm getsin, qalmasın da kölgəsi,
Olsun dünya − o bir sevinc ölkəsi!

Ədəbiyyatşünaslıqda bu bəndin məzmunu haqqında bildirilir ki, "bunlar təkcə xoş arzular, istəklər, gözəl bir dilək deyildi; Ə.Cavadın gözəl bir gələcəyə, əqidə rəhbəri M.Ə.Rəsulzadənin dediyi kimi, "bir kərə yüksələn bayrağın bir daha enməyəcəyinə" ən dərin, ən sonsuz bir inam idi" [Salamoğlu, 2021:556].

**Ədəbiyyat / References**


1. Cavad, Ə. (1992). Seçilmiş əsərləri. II cild. − Bakı: − 146 s.
2. Nəbiyev, B. (1993). Əhməd Cavad. − Gəncə: − 124 s.
3. Məmmədov, A. (1990). Azərbaycan Demokratik Respublikası dövründə ədəbiyyat. //"Ulduz" jurnalı. − Bakı: № 5.
4. Yıldırım, J.Y. (1992). Selam türkün bayrağına. − İzmir: − 132 s.
5. Salamoğlu, T. (1995). İstiqlal yolunda ölümə gedən şair //"Vətəndaş" qəzeti. − Bakı: − 19 may.
6. Salamoğlu, T. (2021). XIX əsrin sonu XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatının aktual problemləri. − Bakı: Elm və təhsil. – 664 s.
7. Saləddin, Ə. (1992). Əhməd Cavad. −Bakı: Gənclik. – 328 s.



**Məqalə tarixçəsi**

*Daxil olub* *13.03.2024*

*Qəbul edilib* *18.03.2024*

*Nəşrə tövsiyə edib* *Nazilə Abdullazadə*

*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*